# POETİK DÜŞÜNCƏLƏR

Tofiq Xəlil ədəbiyyata ləngərlə gələn şairdir. Qırx ilə yaxın bir dövrdə neçə-neçə əsərlər yazıb-yaratsa da, heç zaman mənzilə tez-tələsik yetişməyə can atmamış, qələmə aldıqlarını təfəkkür süzgəcindən dönə-dönə keçirməyi özünə mənəvi borc bilmişdir. Onun sənətkar xoşbəxtliyinin məğzini məhz özünün poetik tərcümeyi-halında arayıb-axtarmaq daha uyarlıdır. Şairin şeirlərinin axarı nədənsə məndə onun sahilində doğulub boya-başa çatdığı Kür çayını xatırladır. Bu şeirlərin intonasiyası bəzən sakit bir məcrada bənd alır, bəzən də öz yatağına sığışmır...

Elə bu duyğuların, bu düşüncələrin ağuşunda T.Xəlilin yenicə çapdan çıxmış “Könlümün Gəncə çələngi” kitabını (Bakı “Ecoprint “ 2016) vərəqləyirəm. Və belə bir fikrə gəlirəm ki, Gəncənin söz çələngini Gəncədə doğulmadan da, Gəncəni ürəkdən sevməklə də yaratmaq olar. Onu da vurğulamaq istəyirəm ki, yaşadığımız keşməkeşli bir zamanda bəlkə də T.Xəlil Ulu Gəncəyə qatar-qatar şeirlərdən çələng hörmüş ilk müəllifdir. Onun qəlbində və qələmində bu torpağa tükənməz məhəbbət hissləri duyulur. Bunu şairin “Götür yaz adımı dəftərə, Gəncə” şeirinin elə ilk bəndindən hiss etmək mümkündür:

*Arzum atlı olub, çapıb gəlmişəm,*
*Ümid kəməndimi atıb, gəlmişəm.*
*Mən sənin adını tutub gəlmişəm,*
*Götür yaz adımı dəftərə, Gəncə.*

Mən cəsarətlə deyərəm ki, şairin söz çəmənindən cücərib qalxan Gəncə məhəbbəti bu mühitdə yaşayıb-yaradan müəlliflər üçün sanki poetik bir çağırışdır. Axı Gəncə söz-sənət üçün tükənməz xəzinədir.

Tofiq Xəlil bu gün Gəncənin poetik taleyini çiyinlərində daşıyan müəlliflərdən biridir. Burada yaşamağa başladığı kiçik bir zaman kəsiyində şəhərin keçmişindən də halıdır, indisindən də... Üstəlik, Gəncənin sabahına da böyük inamla, tükənməz ümidlə yanaşır:

*Küçələr nur saçır, yollar açılır,*
*Sabaha uzanan qollar açılır.*
*(“Gözəldir Gəncə”)*

Şairin nəğmə çələngində tarixi sərrast dəyərləndirmə, poetik araşdırma, \hər məqama incə, zərif duyğularla yanaşma tərzi elə ilk baxışdan oxucu diqqətini özünə cəlb edir. Müəllif heç zaman “Gəncə səni sevirəm” demir, onun sevgisi qollarını poetik misralarla açır Gəncəyə.

Şairin qələmə almış olduğu şeirlərdə uzaq və yaxın keçmişin izlərinə də rast gəlinir:

*Nizamiylə salıbdı söz gülzarı,*
*Məhsətiylə gətirib eşq rüzgarı.*
*Cavadxanın bizə qalan məzarı,*
*Mənim yurdum, doğma elimdi Gəncə,*
*Qədim yurdum, dörd min ilimdi Gəncə.*
*(“Mənim yurdum,doğma elimdi Gəncə”)*

T.Xəlilin bir çox şeirləri nəğmələri xatırladır. Misraların oynaqlığı, ritmik ahəngi, təbii deyim tərzi və s. bu ruhlu nümunələrin özəyini təşkil edir. Yəqin ki, elə buna görə də bir çox bəstəkarlar onun yaradıcılığına tez-tez müraciət edirlər:

*Qatar-qatar karvan dolu,*
*Sinən üstü İpək yolu,*
*Qucağında qovuşubdu,*
*Şərqin Qərbə açan qolu,*
*Mənim Gəncəm, mənim Gəncəm!*

Tofiq Xəlil öz yaradıcılığında Gəncənin tarixi abidələrinə də çox hissiyatla, çox həssaslıqla yanaşır. Hər saxsı parçasının, hər kərpicin, hər daşın

“təvəllüdü” ilə ciddi surətdə maraqlanır və onu öyrənməyə can atır. Onun “Gəncə çayı”, “Ocaq yerim, od yerimsən”, “Gəncə bir yerdi - Gəncə”, “4000 il yol gələn Gəncəm”, “Gəncə zəlzələsi” və s. şeirləri Ulu Gəncənin tərcümeyi-halını əks etdirən layiqli töhvələrdir.




Kitabda verilən “Göllər səltənəti Gəncə” bölümündəki şeirlər də təbii görkəmi, gözəlliyi, ab-havası ilə fərqlənən nümunələr kimi oxucuda xoş əhval-ruhiyyə doğurur. “Göy göl”, “Qara göl”, “Maral gölü”, “Qırmızı göl”, “Ördək gölü” və s. adlı nümunələr təbii tutumu ilə seçilir. Bu göllərin hər birinin məxsusi mənzərəsi oxucu qəlbində xoş hisslər oyadır. Göllər sonası Göy göl haqqında sənətkarlarımız çox yazmışlar. T.Xəlilin bu mövzuda yazdığı şeir də öz təravəti ilə seçilir:

*Müqəddəs libasda yaşıl hücrəsən,*
*Göllərin nəslinə sən şəcərəsən.*
*Keçmişə açılan bir pəncərəsən,*
*Sən sirli aynasan, güzgüsən, Göy göl.*

Sonda onu bir məqama da toxunum: Tofiq Xəlil yaradıcılığının bir xüsusiyyəti də ondan ibarətdir ki, o, qələmə aldığı hər bir mövzuya ürəklə və təmkinlə yanaşır, həmin mövzunun ictimai tutumunu açıb göstərməyə can atır.

**Ələsgər ƏLİOĞLU**